# “Kəpəz Bank Olmayan Kredit Təşkilatı”
# Məhdud Məsuliyyətli Cəmiyyəti

*Hər birinin nominal dəyəri 100 AZN (bir yüz manat) olan 20 000  (iyirmi min) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazların*

# BAZA EMİSSİYA PROSPEKTİ

**Bakı-2026**

**Qeyd:** Azərbaycan Respublikasının Mərkəzi Bankı bu Baza Emissiya Prospektində olan məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və nəzarət orqanı kimi onu qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə etmir.

Baza Emissiya Prospektinin tərtib edilməsində iştirak edən şəxslər və
Baza Emissiya Prospektində təqdim edilmiş məlumatlara dair

# BƏYANAT

Biz, aşağıda imza edənlər,

1. Bu Baza Emissiya Prospektini tərtib etməzdən öncə Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-ci il tarixli 05 nömrəli Qərarı ilə təsdiq edilmiş "Emissiya Prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.
2. "Kəpəz Bank Olmayan Kredit Təşkilatı" MMC -nin hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 20 000 (iyirmi min) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlarının Baza Emissiya Prospektinə daxil edilən bütün məlumatlar həqiqi faktlara əsaslanır, heç bir faktın gizlədilməmişdir və bunun üçün bütün lazımi tədbirlər görülmüşdür.

**"Kəpəz Bank Olmayan Kredit Təşkilatı" MMC-nin Direktoru:**

Rəşad [illegible]lfəz oğlu Əliyev

______________________

Tarix: 18 May 2026-cı il

**"Kəpəz Bank Olmayan Kredit Təşkilatı" MMC-nin**

**Maliyyə məsələləri üzrə direktor müavini:**

Elvin Əli oğlu Rəhimov

______________________

Tarix: 18 May 2026-cı il

# MÜNDƏRİCAT

**XÜLASƏ**......................................................................................................4

1. Xəbərdarlıq ......................................................................................4
2. Emitent barədə məlumat ......................................................................4
3. Qiymətli kağızlar haqqında məlumat ..........................................................7
4. Risk faktorları ........................................................................................9
5. Təklif ........................................................................................................10

**İstiqrazların emitenti barədə tələb olunan məlumatlar**..................................12

6. Emitentin auditorları barədə məlumat.........................................................12
7. Seçilmiş maliyyə məlumatı ........................................................................12
8. Emitent barədə məlumat ...........................................................................13
9. Emitentin biznesinin icmalı .......................................................................14
10. Digər təşkilatda iştirak ..........................................................................15
11. Tendensiyalar barədə məlumat ................................................................15
12. Gəlir proqnozu .......................................................................................15
13. Emitentin idarəetmə və nəzarət orqanları ..................................................15
14. İdarə heyətinin işgüzar praktikası ............................................................17
15. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan şəxslər ..........17
16. Emitentin maliyyə məlumatları ...............................................................18
17. Emitent haqqında əlavə məlumatlar .........................................................22
18. İstiqrazlar haqqında ümumi məlumat........................................................23

# XÜLASƏ

## 1. Xəbərdarlıq

**1.1.** Bu sənəd Baza Emissiya prospektinin giriş hissəsidir;

**1.2.** İstiqrazlara investisiya etmək barədə hər hansı bir qərar investorun Baza Emissiya prospektini oxuduqdan sonra həyata keçirilməlidir;

**1.3.** Baza Emissiya prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya İstiqrazlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman Baza Emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyət daşıyırlar.

## 2. Emitent barədə məlumat

**2.1. Emitentin tam adı:** "Kəpəz Bank Olmayan Kredit Təşkilatı" Məhdud Məsuliyyətli Cəmiyyəti (Bundan sonra - Emitent).

**2.2. Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə:**
Azərbaycan Respublikası; AZ 1065, Bakı şəhəri Yasamal rayonu, Mirzə Fətəli Axundov, ev 177
Təşkilati-hüquqi forması: Məhdud Məsuliyyətli Cəmiyyəti

**2.3.Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri:** Təşkilat riteyl və mikro biznes kredit bazarında rəqabət aparır. Hazırki dövrdə, kredit təşkilatı kimi "Kəpəz Bank Olmayan Kredit Təşkilatı" MMC-də bazara əsas təsir edən valyuta və portfel riski qənaətbəxş şəkildə idarə olunur. Cəmiyyətin mövcud portfelində prospektin hazırlandığı tarixə valyuta riski yaradacaq portfel mövcud deyildir və portfelinin böyük hissəsi milli valyutada, həmçinin təminat altında – yəni daşınmaz və daşınar əmlak təminatı əsasında formalaşdırılmışdır. Bununla yanaşı, son illərdə ölkənin maliyyə sektorunda və xüsusilə bank olmayan kredit təşkilatları seqmentində bir sıra iqtisadi, texnoloji və tənzimləyici tendensiyalar müşahidə edilir ki, bunlar emitentin fəaliyyətinə birbaşa və ya dolayı təsir göstərir. Ölkə iqtisadiyyatında sabit inkişaf templərinin qorunması, inflyasiya səviyyəsinin tənzimlənməsi və milli valyutanın nisbətən sabit məzənnəsi mikro və pərakəndə kredit bazarına müsbət təsir göstərir. Bununla belə, beynəlxalq maliyyə bazarlarında faiz dərəcələrinin dəyişməsi və qlobal iqtisadi qeyri-müəyyənliklər maliyyələşmə xərclərinə və kapital axınlarına təsir edə bilər. "Kəpəz BOKT" MMC bu dəyişkənliklər fonunda risk idarəçiliyi və ehtiyatlı maliyyə siyasətinə üstünlük verərək, kapitalın dayanıqlığını təmin edir. Riteyl və mikro kredit sektorunda fəaliyyət göstərən bank və BOKT-lar arasında rəqabətin artması, xüsusilə faiz siyasəti, xidmət sürəti və rəqəmsal xidmətlərin keyfiyyəti sahəsində özünü göstərir. Rəqiblərin bazarda daha geniş texnoloji imkanlara malik olması müştəri cəlb etmə strategiyalarına təsir edir. Buna baxmayaraq, "Kəpəz BOKT" MMC fərdi müştəri yanaşması, şəffaf kredit şərtləri və əlçatan xidmət şəbəkəsi vasitəsilə bazarda sabit payını qoruyur. Azərbaycan Respublikası Mərkəzi Bankının və digər tənzimləyici qurumların kapital adekvatlığı, risklərin açıqlanması, hesabatlılıq və şəffaflıqla bağlı yeni tələbləri sektorun ümumi fəaliyyət mühitini formalaşdırır. Bu tələblər, hər nə qədər əməliyyat xərclərini artıra bilsə də, eyni zamanda bazarın dayanıqlılığını və investorlara inamı gücləndirir. Cəmiyyət bu dəyişikliklərə uyğunlaşmaq üçün daxili nəzarət, audit və risk monitorinqi sistemlərini mütəmadi təkmilləşdirir. Maliyyə xidmətlərinin rəqəmsallaşması son illərdə sürətlə artmaqdadır. Müştərilərin onlayn müraciət, elektron ödəniş və mobil tətbiqlər vasitəsilə kredit xidmətlərindən yararlanmaq istəyi bazarda texnoloji innovasiyaları qaçılmaz edir. "Kəpəz BOKT" MMC bu istiqamətdə mərhələli şəkildə məlumat texnologiyaları infrastrukturunu yeniləyir, proseslərin avtomatlaşdırılmasına və risklərin real vaxt rejimində

izlənilməsinə yönəlmiş layihələr həyata keçirir. Cəmiyyətin əsas fəaliyyət prinsiplərindən biri risklərin müvafiq normativ çərçivədə idarə olunmasıdır. Kredit riski, likvidlik riski və əməliyyat riski üzrə daxili nəzarət mexanizmləri tətbiq edilir. Portfelin əsas hissəsinin təminatlı və milli valyutada formalaşması valyuta və defolt risklərini minimuma endirir. Bu yanaşma təşkilatın kapitalın qorunması və maliyyə sabitliyinin saxlanılması baxımından mühüm rol oynayır.

**2.4. Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:** Mövcud deyil.

**2.5. Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:** Gəlir proqnozu mövcud deyil.

**2.6. Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:**

2023, 2024 və 2025-ci illərdə "Kəpəz Bank Olmayan Kredit Təşkilatı" MMC-nin kənar audit yoxlaması RSM Azerbaijan audit şirkəti tərəfindən aparılmışdır. Kənar audit rəyinə əsasən, "Kəpəz Bank Olmayan Kredit Təşkilatı" MMC-nin maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Cəmiyyətin il sonuna maliyyə vəziyyətini və həmin il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq düzgün əks etdirir. Audit zamanı 2023-2025-ci illər üzrə balans hesabatı, Mənfəət və Zərər haqqında hesabat, Kapitalda dəyişiklik və Pul vəsaitlərinin Hərəkəti haqqında hesabatlar üzrə cədvəllər tərtib olunmuş və rəylərdə əks etdirilmişdir. Həmin dövrlər üzrə Cəmiyyətin fəaliyyətinə müsbət rəy verilmişdir. 2023-2025-ci illər üzrə kənar audit tərəfindən verilmiş rəylərdə mühüm və ya riskli qeydlər olmamışdır.

**2.7. Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir.** Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin maliyyə vəziyyətində və maliyyə nəticələrində əhəmiyyətli dəyişikliklər olmamışdır.

| Göstəricilər (Manatla) | 31.12.2025 (Audit edilmiş) | 31.12.2024 (Audit edilmiş) | 31.12.2023 (Audit edilmiş) |
|---|---|---|---|
| **Cəmi aktivlər** | 14 787 397 | 12 106 209 | 9 773 435 |
| **Cəmi öhdəliklər** | 7 351 702 | 6 792 276 | 6 316 916 |
| **Cəmi kapital** | 7 435 695 | 5 313 933 | 3 456 519 |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | 1 015 697 | 325 047 | 128 125 |
| **Müştərilərə verilmiş kreditlər və avanslar** | 12 238 162 | 10 665 355 | 8 998 484 |
| **Xalis faiz gəlirləri** | 4 138 602 | 3 528 304 | 2 727 642 |
| **Vergidən əvvəlki mənfəət** | 2 652 331 | 2 339 404 | 1 737 215 |
| **Cəmi məcmu gəlir** | 2 121 762 | 1 857 414 | 1 389 772 |

**2.8. Emitentin ödəmə qabiliyyətinə təsir edən ən son hadisələr:** Təşkilatın ödəmə qabiliyyətinə təsir edən əsas amillərdən biri olan kredit portfelinin illik artım tempi və portfel keyfiyyəti qənaətbəxş səviyyədə idarə olunur. Aşağıdakı cədvəldə portfelin artım tempi və gecikmədə olan kredit portfeli üzrə göstəricilər təqdim edilmişdir. Son 3 ildə kredit portfelinin orta illik artımı 20.27%, 30 gündən çox gecikmiş portfelin ümumi kredit portfelinə nisbətinin orta illik göstəricisi isə 38.7% olmuşdur. 30 gündən çox gecikmiş portfelin payı son 3 ildə dalğalı dinamika göstərsə də (əvvəl artıb, sonra azalıb),

bu portfelin təminatsız hissəsinin kredit portfelinə nisbəti 1.48%-dən 0.22%-ə qədər azalmışdır ki, bu da risklərin idarə olunmasında müsbət tendensiyanı əks etdirir.

Nizamnamə Kapitalının Artırılması:

Emitentin nizamnamə kapitalının 5 000 000 AZN (beş milyon) çatdırılması, emitentin maliyyə dayanıqlığını gücləndirən müsbət bir addımdır. Bu, investorların şirkətə olan inamını artırır və maliyyə resurslarının genişləndirilməsinə şərait yaradır.

Qiymətli kağız buraxılışı:

"Kəpəz Bank Olmayan Kredit Təşkilatı" MMC-nin 31.12.2025-ci il tarixinə buraxılmış borc qiymətli kağızlarına ümumi qalıq dəyəri 4 470 000 AZN olan və hər birinin nominal dəyəri 1000 AZN və 1000 istiqrazda illik sabit kupon dərəcəsi 15%-ə və 1500 istiqrazda isə illik sabit kupon dərəcəsi 14%-ə və 1970 istiqrazda isə illik sabit kupon dərəcəsi 16%-ə bərabər olan 4470 istiqraz daxildir.

31.12.2024-cü il tarixinə buraxılmış borc qiymətli kağızlarına ümumi qalıq dəyəri 4 070 000 AZN olan və hər birinin nominal dəyəri 1000 AZN və 1500 istiqrazda illik sabit kupon dərəcəsi 14%-ə və 2570 istiqrazda isə illik sabit kupon dərəcəsi 16%-ə bərabər olan 4070 istiqraz daxildir.

31.12.2023-cü il tarixinə buraxılmış borc qiymətli kağızlarına ümumi qalıq dəyəri 4 552 000 AZN olan və hər birinin nominal dəyəri 1000 AZN və 1952 istiqrazda illik sabit kupon dərəcəsi 14%-ə və 2600 istiqrazda isə illik sabit kupon dərəcəsi 16%-ə bərabər olan 4552 istiqraz daxildir. İstiqrazlar üzrə faizlər hər ay olmaqla ödənilir. İstiqraz sahiblərinin ödəmə müddəti başa çatdıqda əsas borcun qaytarılmasını tələb etmək hüququ vardır. İstiqrazların təkrar bazarlarda satışı və alışı ilə bağlı heç bir məhdudiyyət yoxdur.

| Göstəricilər | 31.12.2025 | 31.12.2024 | 31.12.2023 |
|---|---|---|---|
| Kredit portfeli (məbləğ) | 13 618 368 | 12 086 658 | 10 196 434 |
| Portfelin illik artım %- i | 12.7% | 18.5% | 29.6% |
| PAR>30 (məbləğ) | 4 957 513 | 5 507 136 | 3 477 233 |
| PAR>30 təminatsız hissə (məbləğ) | 30 045 | 143 710 | 150 575 |
| PAR>30 / Portfel (%) | 36.4% | 45.6% | 34.1% |
| PAR>30 təminatsız hissə / Portfel (%) | 0.22% | 1.2% | 1.48% |

**2.9.Emitentin əsas fəaliyyətlərinin təsviri:** "Kəpəz Bank Olmayan Kredit Təşkilatı" Məhdud Məsuliyyətli Cəmiyyəti Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən fəaliyyət göstərən maliyyə institutudur və kredit təşkilatları üçün nəzərdə tutulmuş qaydalara uyğun olaraq müvafiq lisenziya əsasında fəaliyyət göstərir.

Fəaliyyət sahəsi və istiqamətləri: Emitentin əsas fəaliyyəti fiziki və hüquqi şəxslərə qısa və uzunmüddətli, təminatlı və təminatsız kreditlərin verilməsindən ibarətdir. Bununla yanaşı, təşkilat aşağıdakı maliyyə xidmətlərini də həyata keçirir:

• Borc öhdəliklərinin alqı-satqısı (faktorinq, forfeytinq əməliyyatları);
• Lizinq xidmətlərinin göstərilməsi;
• Veksellərin uçotu;
• Qarantiyaların verilməsi;
• Sığorta agenti kimi vasitəçilik fəaliyyəti;
• Borcalanlara, o cümlədən birgə borcalan qruplarına maliyyə, texniki və idarəetmə məsələləri üzrə məsləhət xidmətlərinin göstərilməsi.

Əsas məhsul və xidmətlər:

Təşkilatın əsas məhsulları istehlak, biznes, lizinq məhsulları, faktorinq xidmətləri və zəmanət mexanizmləridir. Müştərilərə həm fərdi, həm də korporativ maliyyə ehtiyaclarını qarşılamaq üçün çevik və uyğunlaşdırılmış kredit həlləri təqdim olunur.

Əsas müştəri və bazarlar:

"Kəpəz BOKT" MMC-nin müştəri bazası əsasən yerli fiziki şəxslər, kiçik və orta sahibkarlıq subyektləri, xidmət sektorunda fəaliyyət göstərən müəssisələrdən ibarətdir. Fəaliyyət daha çox Azərbaycan Respublikasının daxili bazarına yönəlib.

Fəaliyyətin coğrafi əhatəsi:

Emitentin fəaliyyəti Azərbaycan Respublikası ərazisində həyata keçirilir. Baş ofis Bakı şəhərində yerləşir və müştərilərə daha yaxın olmaq məqsədilə filial şəbəkəsinin genişləndirilməsi istiqamətində işlər aparılır.

İnfrastrukturun qısa təsviri:

Təşkilatın əsas ofisi müasir texniki avadanlıqlarla təchiz edilmişdir, müasir bank proqram təminatı vasitəsilə əməliyyatlar həyata keçirilir. Rəqəmsal xidmətlərin inkişaf etdirilməsi prioritet istiqamətlərdən biridir.

Əsas tərəfdaşlar və təchizatçılar:

"Kəpəz BOKT" MMC fəaliyyətini Azərbaycan Respublikasının Mərkəzi Bankın tələblərinə uyğun həyata keçirir, həmçinin yerli və beynəlxalq donor təşkilatları, investisiya fondları və kommersiya bankları ilə əməkdaşlıq münasibətlərinə malikdir. Bu tərəfdaşlıqlar vasitəsilə təşkilat maliyyə resurslarının cəlb edilməsini və müştərilərə daha geniş xidmət portfeli təqdim edilməsini təmin edir.

**2.10.Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsisiyyətləri:** "Kəpəz Bank Olmayan Kredit Təşkilatı" Məhdud Məsuliyyətli Cəmiyyətinin nizamnamə kapitalının 100%-i 1 (bir) fiziki şəxsə məxsusdur. Cəmiyyətin ali idarəetmə orqanı onun İştirakçılarının Ümumi Yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi Yığıncaq nizamnamə kapitalında ən azı 60 % (altmış faiz) paya malik olan payçı (-lar) iştirak etdikdə səlahiyyətli sayılır.

# 3. Qiymətli kağızlar haqqında məlumat

**3.1.İstiqrazların növü:** faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlar.

**3.2.İstiqrazların valyutası:** Azərbaycan manatı.

**3.3.İstiqrazlarla təsbit olunan məhdudiyyətlərin təsviri:** Mövcud deyil.

**3.4.İstiqrazlarla təsbit olunmuş hüquqların təsviri:**

• Emitentin ləğvi, yaxud emitentin kreditorlarının tələblərinin ödənilməsinin təminatına real təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;

• İstiqrazların tədavül müddətinin sonunda istiqrazların nominal dəyərini Emitentdən almaq;

• İstiqrazların tədavül müddəti ərzində istiqrazların nominal dəyərindən hər bir buraxılışın yekun şərtlərində müəyyən olunmuş faiz dərəcəsinə uyğun faiz gəliri almaq;

• Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

**3.5.İstiqrazların faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti. Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin nəyin əsasında hesablanması üsulu, həmin əsas barədə məlumat və onun müəyyən olunmasının mənbələr:**

1-ci buraxılış üzrə istiqrazların illik faiz dərəcəsi 15 (on beş) faiz təşkil edir, 2-ci buraxılış üzrə isə istiqrazların illik faiz dərəcəsi yekun şərtlər ilə müəyyən olunacaq. İstiqrazlar üzrə hesablanmış faizlər, buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən hər 1 (bir) ayda bir (bir ayda 30 (otuz) gün olduğunu qəbul etmək şərti ilə) ödəniləcəkdir. İstiqrazların tədavül müddəti 24 (iyirmi dörd) ay təşkil edir. İstiqrazların dəyəri tədavül müddətinin sonunda ödəniləcək. İstiqrazların nominal dəyərinin ödənişi qeyri-iş gününə təsadüf edərsə, ödənişlər növbəti iş günü həyata keçiriləcəkdir.

**3.6.Təmin edilmiş istiqrazlar üzrə təminatın təsviri və şərtlər:** İstiqrazlar təmin edilməmiş formada buraxılır.

**3.7.İstiqrazların geri satın alınma şərtləri:** Emitent tərəfindən istiqrazların tədavül müddəti ərzində geri satın alınması nəzərdə tutulmur.

**3.8.Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:** İstiqrazların nominal dəyərinin ödənilmə müddəti buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 24 (iyirmi dörd) ay təşkil edir. İstiqrazların tədavül müddəti istiqrazların "Bakı Fond Birjası" QSC-də yerləşdirildiyi gün başlayır. İstiqrazların nominal dəyəri istiqrazların tədavül müddətinin son günündə ödəniləcək. İstiqrazların nominal dəyərinin ödənişi qeyri-iş gününə təsadüf edərsə, ödənişlər növbəti iş günü həyata keçiriləcəkdir. İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

$$TF = \frac{\frac{(N * D * G)}{360}}{100}$$

**Burada:**

**TF –** Bir istiqraz üzrə toplanmış faizlər;

**N –** Bir istiqrazın nominal dəyəri: 100 (bir yüz) Manat;

**D –** 1-ci buraxılış üzrə istiqrazların illik faiz dərəcəsi: 15 (on beş);

G – İstiqrazların faiz ödəniş dövrünün müddəti: (hər 1 (bir) ayda bir (bir ayda 30 (otuz) gün olduğunu qəbul etmək şərti ilə).

**3.9.İstirazların mülkiyyətçisinin təmsilçisinin adı:** Mövcud deyil.

**3.10.Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** İstiqrazlar təmin edilməmiş formada buraxılır.

**3.11.İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat: Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda, istiqrazların ticarətə buraxılacağını tənzimləyən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** İstiqrazların yerləşdirilməsi kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Baza Emissiya prospekti dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platformasında həyata keçiriləcək. İstiqrazların listinqə daxil olması ilə bağlı müraciət Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir. Emissiya prosesində iştirak edən "Bakı Fond Birjası" QSC yeni emissiya edilmiş istiqrazların ticarətə buraxılması üçün icazə proseduru, hərrac vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, listinqə daxil edilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

• dövlət qiymətli kağızları bazarı;

• korporativ qiymətli kağızlar bazarı;

• törəmə maliyyə alətləri bazarı.

Qiymətli kağızların ticarətə buraxılması "Bakı Fond Birjası" QSC-də qiymətli kağızların ticarətə qəbulu, listinqə alınması, listinqdə saxlanılması və delistinqi Qaydaları" na əsasən həyata keçirilir.

Yerləşdiyi ünvan: AZ1022, Bakı şəhəri, Nəsimi rayonu, Cəlil Məmmədquluzadə küç, 102A.

(City Point Biznes Mərkəzi)

Elektron poçt: info@bse.az

İnternet şəbəkəsində rəsmi səhifəsi: bfb.az

Tel: (+99412) 498 98 20

# 4. Risk faktorları

**4.1.Təklif olunan istiqrazlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:**

• Faiz riski – faiz dərəcələrinin mənfi dəyişməsindən yaranan itki riski. Faiz dərəcələrinin dəyişməsi maliyyələşdirmə şərtlərinə və istiqrazların bazar dəyərinə təsir göstərə bilər;

• Hesablaşma və kontragent riski – hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri. Emitentin fəaliyyəti çərçivəsində belə risklərlə qarşılaşma ehtimalı mövcud ola bilər;

• İnflyasiya riski – pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk. İnflyasiya səviyyəsində baş verə biləcək dəyişikliklər emitentin maliyyə göstəricilərinə və istiqrazların faiz dərəcələrinə təsir göstərə bilər;

• Əməliyyat riski – daxili proseslər, sistem pozğunluqları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri. Emitentin fəaliyyəti zamanı belə risklərin yaranması ehtimalı istisna edilmir;

• Kredit riski – borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki risklər. Emitent cari aktiv və öhdəliklərini effektiv şəkildə idarə edir və hazırda likvidlik problemləri ilə üzləşmir ki, bu da kredit riskinin idarə olunmasına müsbət təsir göstərir;

• Likvidlik riski – müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyü. Emitentin istiqrazları üzrə təkrar bazarda aktiv ticarətin nəzərdə tutulmaması investorlar üçün likvidlik riskini artıra bilər;

• Təbii risk – insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, fors-major və s.). Təbii risklərin baş verməsi emitentin fəaliyyətində fasilələrə, maliyyə itkilərinə və öhdəliklərin icrasında gecikmələrə səbəb ola bilər;

• Valyuta riski – valyuta kurslarının əlverişsiz şəkildə dəyişməsindən yaranan itki risk.. Emitentin xarici valyutada aktiv və ya öhdəliklərinin olduğu hallarda və ya valyuta məzənnələrinin dəyişməsi nəticəsində bu risk maliyyə nəticələrinə təsir göstərə bilər;

• Maliyyə sabitliyi riski – Şirkətin gələcək maliyyə vəziyyətində baş verə biləcək mənfi dəyişikliklərin istiqrazların dəyərinə təsiri riski. Gələcəkdə maliyyə göstəricilərində baş verə biləcək dəyişikliklərin istiqrazlarla bağlı öhdəliklərə təsir göstərməsi ehtimalı istisna edilmir.

**4.2.İstiqraz emissiyası zamanı emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları:**

• Hüquqi risk – qanunvericilikdə dəyişikliklər ilə bağlı risk (qanunvericilik riski) – yeni qanunvericilik aktlarının, o cümlədən vergi aktlarının yaranması va ya mövcud aktların dəyişməsi (ləğv edilməsi) ilə bağlı itkilərin baş verməsi mümkünlüyü. Qanunvericilik riskinə həmçinin qiymətli kağızlar bazarının hər hansı sektorunda fəaliyyəti tənzimləyən normativ-hüquqi aktların olmamasından baş vermiş itkilər da daxildir;

• Sosial-siyasi – Ölkədə və ya regionda baş verə biləcək siyasi qeyri-sabitlik, iqtisadi sanksiyalar və ya beynəlxalq münasibətlərdə gərginlik kimi amillər emitentin maliyyə dayanıqlığına və investor etimadına təsir göstərə bilər;

• Cinayət – üçüncü şəxslərin və/yaxud İnvestisiya şirkətinin əməkdaşlarının qanunsuz əməlləri, məsələn, sənədli formada buraxılmış qiymətli kagızların saxtalaşdırılması, dələduzluq, kompüter sistemlərindən və məxfi məlumatlardan icazəsiz istifadə ilə bağlı risk;

• Təbii – insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, zəlzələ, daşqın, tufan,qasırğa,ildırım və s. risklər;

• İqtisadi və bazar riskləri: Azərbaycan Respublikasında və ya beynəlxalq miqyasda iqtisadi şəraitin dəyişməsi, inflyasiya səviyyəsinin artması, milli valyutanın məzənnə dalğalanmaları və ümumi

iqtisadi durğunluq təşkilatın gəlirliyinə və ödəmə qabiliyyətinə mənfi təsir göstərə bilər. Kredit portfelinin keyfiyyətinə təsir edən iqtisadi geriləmələr borcalanların ödəniş intizamını zəiflədə və likvidlik riskini artırada bilər;

• Maliyyə və likvidlik riskləri: Emitentin əsas gəlir mənbəyi kredit əməliyyatlarından formalaşdığı üçün, kreditlərin vaxtında geri qaytarılmaması və ya gecikməsi likvidlik problemlərinə səbəb ola bilər. Maliyyə resurslarının məhdudluğu və ya borc öhdəliklərinin artması istiqraz sahibləri qarşısında öhdəliklərin icrasına mənfi təsir göstərə bilər;

• Bazar riskləri: Faiz dərəcələrinin dəyişməsi, maliyyə bazarlarında rəqabətin artması və kredit tələbinin azalması gəlirliliyə mənfi təsir göstərə bilər. Eyni zamanda, kapital bazarlarına çıxış imkanlarının məhdudlaşması istiqraz öhdəliklərinin refinanslaşdırılmasını çətinləşdirə bilər;

• Təbii fəlakət və fors major: Zəlzələ, sel, epidemiya və digər təbii və texnogen fəlakətlər təşkilatın normal fəaliyyətinin pozulmasına, əməliyyat infrastrukturunun zədələnməsinə və maliyyə itkilərinə səbəb ola bilər;

• Risk azaldılması tədbirləri və zəmanət amilləri: Qeyd etmək lazımdır ki, "Kəpəz Bank Olmayan Kredit Təşkilatı" MMC-nin kredit portfelin əsas hissəsi və verdiyi bütün kreditlər yalnız milli valyutada (Azərbaycan manatı ilə) həyata keçirilir ki, bu da valyuta riskini tam aradan qaldırır. Eyni zamanda, verilən kreditlərin demək olar ki, böyük əksəriyyəti təminat altında, əsasən daşınmaz əmlakla təmin olunması təşkilatın kredit portfelinin etibarlılığını artırır və potensial itkiləri minimuma endirir. Bu amil emitentin istiqraz sahibləri qarşısında öhdəliklərini yerinə yetirmək qabiliyyətini gücləndirən mühüm risk azaldıcı faktor kimi çıxış edir.

# 5. Təklif

**5.1.Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi:** Kredit məhsullarına tələbin artması fonunda emitent istiqraz buraxmaqla daha sərfəli şərtlərlə vəsait cəlb edib və əhalinin kredit tələblərini təmin etməklə öz mövqeyini qoruyub artırmağı nəzərdə tutur. Həmçinin təklifin əsas səbəbi mənfəət əldə ediləcək layihələrə yatırım etməkdən ibarətdir.

**5.2.Təklifin şərtlərinin təsviri:** İstiqrazlar kütləvi təklif üsulu ilə Bakı Fond Birjasında yerləşdiriləcəkdir. İstiqrazlar birqiymətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır. Hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitləri investorlar tərəfindən anderrayterin hesablaşma agenti kimi çıxış edən "Azər-Türk Bank" ASC-də açılmış emitentin müvəqqəti cari hesabına köçürülməlidir. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (bfb.az) və Emitentin internet saytında (kepez-bokt.az) açıqlanır.

**5.3.Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:**

***"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti.*** Emissiya prosesində iştirak edən Bakı Fond Birjası yeni emissiya edilmiş istiqrazların ticarətə qəbulu, listinqə daxil edilməsi, hərrac vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

• dövlət qiymətli kağızları bazarı;
• korporativ qiymətli kağızlar bazarı;
• törəmə maliyyə alətləri bazarı.

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

Yerləşdiyi ünvan: AZ1022 Bakı şəhəri, Nəsimi rayonu, Cəlil Məmmədquluzadə küç, 102A.
(City Point Biznes Mərkəzi)
Elektron poçt ünvanı: info@bse.az
İnternet şəbəkəsində rəsmi səhifəsi: bfb.az
Tel: (+99412) 498 98 20

***Milli Depozit Mərkəzi.*** Milli Depozit Mərkəzi (bundan sonra "MDM") Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxsidir. Ödənişlər üzrə hesablaşma agenti qismində Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi çıxış edir. MDM Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır. Emissiya Prossesində MDM-in vəzifələri aşağıdakılardır:
• qiymətli kağızların saxlanması və uçotunun aparılması;
• qiymətli kağız mülkiyyətçilərinin reyestrinin aparılması;
• Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (əsas borc və faiz) həyata keçirilməsi xidmətinin göstərilməsi.

***Anderrayter***. Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən verilmiş 24.12.2021 tarixli İŞ-08 nömrəli müddətsiz lisenziyaya malik olan "Troni İnvestisiya Şirkəti" QSC qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir. İstiqrazların yerləşdirmə müddəti ərzində anderrayter uçota alınmış sifarişləri fond birjasının ticarət sisteminə daxil edir və Bakı Fond Birjasının ticarət sistemi vasitəsi ilə istiqrazların yerləşdirilməsi xidmətlərini göstərir. Bu emissiyada iştirak edən üçüncü şəxslər arasında emitentlə aidiyyatı şəxs yoxdur. Mərkəzi Depozitar istiqrazları depozitar sistemində saxlanılmağa qəbul edilməsi üçün komissiya əldə edir. Fond birjası və anderrayter isə istiqrazlar yerləşdirildikcə emitentdən və investorlardan komissiya əldə edir və bir başa maddi maraqları vardır. Emissiyada iştirak edən şəxslər arasında maraqlar toqquşmasına yol açan hallar mövcud deyil.

**5.4.İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

**Vergilər.** Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 123.1 ci maddəsinə əsasən Rezident fiziki şəxsə, qeyri-rezident fiziki şəxsin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə (maliyyə lizinqini həyata keçirən fiziki şəxslər istisna olmaqla) və Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezidentə rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərindən, gəlir Vergi Məcəlləsinin 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, Məcəllənin 102.1.22-2-ci maddələrində nəzərdə tutulmuş güzəşt nəzərə alınmaqla ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.

Həmçinin, AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslərin 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur.

İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

**Xərclər.** İlkin bazarda istiqrazların alışı zamanı həyata keçən əqdlərdən aşağıdakı investor xərcləri yarana bilər:

• Bakı Fond Birjası – əqdin həcmindən 0.02%;
• Milli Depozit Mərkəzi – depo hesabının açılışı 5 (beş) AZN, investisiya şirkəti tərəfindən depo hesabı açılışı ilə bağlı əlavə rüsum tətbiq edilə bilər;
• Bank köçürmə xərcləri – bankdan asılı olaraq dəyişir;
• Anderrayter xidmətləri – investisiya şirkəti ilə investor arasında bağlanılmış müqavilədən asılı olaraq dəyişir.

# İstiqrazların emitenti barədə tələb olunan məlumatlar

## 6. Emitentin auditorları barədə məlumat

**6.1. Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:**

| Maliyyə ili | Auditorun adı | Ünvanı | Audit təşkilatında üzvlüyü barədə məlumat |
|---|---|---|---|
| **2023** | RSM Azerbaijan | Bakı şəhəri, Xətai rayonu, Xocalı prospekti, ev. 37 Demirchi tower https://www.rsm.global/ | RSM International |
| **2024** | RSM Azerbaijan | Bakı şəhəri, Xətai rayonu, Xocalı prospekti, ev. 37 Demirchi tower https://www.rsm.global/ | RSM International |
| **2025** | RSM Azerbaijan | Bakı şəhəri, Xətai rayonu, Xocalı prospekti, ev. 37 Demirchi tower https://www.rsm.global/ | RSM International |

**6.2. Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə səbəbləri göstərilməklə məlumat:** Son üç ildə audit şirkəti dəyişməyib.

## 7. Seçilmiş maliyyə məlumatı

**7.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir:** Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin maliyyə vəziyyətində və maliyyə nəticələrində əhəmiyyətli dəyişikliklər olmamışdır.

| Göstəricilər (Manatla) | 31.12.2025 (Audit edilmiş) | 31.12.2024 (Audit edilmiş) | 31.12.2023 (Audit edilmiş) |
|---|---|---|---|
| **Cəmi aktivlər** | 14 787 397 | 12 106 209 | 9 773 435 |
| **Cəmi öhdəliklər** | 7 351 702 | 6 792 276 | 6 316 916 |

| | | | |
|---|---|---|---|
| **Cəmi kapital** | 7 435 695 | 5 313 933 | 3 456 519 |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | 1 015 697 | 325 047 | 128 125 |
| **Müştərilərə verilmiş kreditlər və avanslar** | 12 238 162 | 10 665 355 | 8 998 484 |
| **Xalis faiz gəlirləri** | 4 138 602 | 3 528 304 | 2 727 642 |
| **Vergidən əvvəlki mənfəət** | 2 652 331 | 2 339 404 | 1 737 215 |
| **Cəmi məcmu gəlir** | 2 121 762 | 1 857 414 | 1 389 772 |

## 8. Emitent barədə məlumat

**8.1.Emitentin tam adı, təşkilati-hüquqi forması:** "Kəpəz Bank Olmayan Kredit Təşkilatı" Məhdud Məsuliyyətli Cəmiyyəti.

**8.2.Emitentin dövlət qeydiyyat nömrəsi və tarixi:** VÖEN: 1402564861, Dövlət qeydiyyatına alındığı tarix: 16.07.2013-cü il.

**8.3.Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi:** Mövcud deyil.

**8.4.Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:**

Ünvan: Azərbaycan Respublikası, AZ1065, Bakı şəhəri, Yasamal rayonu,
M.F.Axundov küçəsi, ev 177;
Telefon: (+99412) 436 82 88;
İnternet səhifəsinin ünvanı: kepez-bokt.az;
Elektron poçt ünvanı: info@kepez-bokt.az.

**8.5.Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarın əsas investisiyaların təsviri (məbləği göstərilməklə):** Mövcud deyil.

**8.6.İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri və həmin öhdəlikləri yerinə yetirmək üçün lazım olan maliyyə vəsaiti mənbələri ilə bağlı məlumat:** Mövcud deyil.

**8.7.Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:**

Emissiya prosesində iştirak edən BFB yeni emissiya edilmiş istiqrazların ticarətə buraxılması üçün icazə proseduru, hərrac vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, listinqə daxil edilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti"–ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

• dövlət qiymətli kağızları bazarı;
• korporativ qiymətli kağızlar bazarı;
• törəmə maliyyə alətləri bazarı.

Yerləşdiyi ünvan**:** AZ1022 Bakı şəhəri, Nəsimi rayonu, Cəlil Məmmədquluzadə küç, 102A
(City Point Biznes Mərkəzi)
Elektron poçt ünvanı: info@bse.az
İnternet şəbəkəsində rəsmi səhifəsi: bfb.az
Tel: (+99412) 498 98 20

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

## 9. Emitentin biznesinin icmalı

**9.1.Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətlərinin təsviri:**

"Kəpəz Bank Olmayan Kredit Təşkilatı" Məhdud Məsuliyyətli Cəmiyyəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada qısa və uzun müddətli, təminatlı və təminatsız kreditlər verə bilər. Kreditlərin verilməsi üçün müvafiq lisenziyaya malik "Kəpəz Bank Olmayan Kredit Təşkilatı" Məhdud Məsuliyyətli Cəmiyyəti, həmçinin, aşağıdakı fəaliyyət növlərini də həyata keçirə bilər:

• Borc öhdəliklərinin alqı-satqısı (faktorinq, forfeytinq);
• Lizinq;
• Veksellərin uçotu;
• Qarantiyaların verilməsi;
• Sığorta agenti xidmətinin göstərilməsi;
• Borcalanlara, o cümlədən birgə borcalan qruplarına maliyyə, texniki və idarəetmə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi.

"Kəpəz Bank Olmayan Kredit Təşkilatı" MMC-nin əsas məhsul kateqoriyaları – şəxsi məqsədlərin kreditləşdirilməsi, mikro və kiçik sahibkarlar üçün biznes kreditləridir. Son 3 il üzrə bu məhsullar üzrə kredit portfeli, gəlirlik və mənfəətlik aşağıdakı kimi olmuşdur:

*Azərbaycan manatı ilə*

| | 31.12.2025 | 31.12.2024 | 31.12.2023 |
|---|---|---|---|
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar** | **14 074 862** | **12 086 657** | **10 196 435** |
| İstehlak kreditləri | **14 003 032** | 11 979 067 | 10 051 175 |
| Faktorinq kreditləri | 59 000 | 98 810 | 145 260 |
| Biznes kreditləri | 12 830 | 8 780 | -- |
| Çıxılsın: gözlənilən kredit zərərləri üzrə ehtiyat | (1 836 700) | (1 421 302) | (1 197 951) |
| **Xalis müştərilərə verilmiş kreditlər və avanslar** | **12 238 162** | **10 665 355** | **8 998 484** |

**9.2.Təqdim olunmuş yeni məhsullar və xidmətlər barədə məlumat, onların inkişaf statusu:**

Təqdim olunmayıb.

**9.3.Emitentin rəqabət apardığı əsas bazarların təsviri:** Təşkilat nəzarət orqanı tərəfindən verilmiş lisenziya əsasında fəaliyyətinə icazə verilmiş sahələr üzrə maliyyə bazarında, həmçinin riteyl və biznes kredit bazarında rəqabət aparır. Maliyyə bazarında hal-hazırda lisenziya almış və fəaliyyət göstərən 22 bank və 52 bank olmayan kredit təşkilatı mövcuddur. Bank olmayan kredit təşkilatları (BOKT) maliyyə sistemində aktivlərinə görə təxminən 1% paya malikdirlər. Yanaşı olaraq, maliyyə bazarının işində şirkətlər, digər maliyyə təşkilatları və birjalar iştirak edir və bazar dinamikasını formalaşdırır. "Kəpəz BOKT" MMC əsas rəqabətini kiçik və orta sahibkarlıq subyektləri, müəssisələr və yerli fiziki şəxslərə təqdim etdiyi çevik və təminatlı kredit məhsulları vasitəsilə aparır. Təşkilatın üstünlükləri arasında maliyyə xidmətlərinin milli valyutada verilməsi, kreditlərin əksəriyyətinin daşınmaz əmlakla təmin olunması, həmçinin sürətli qərar qəbul etmə və operativ xidmət göstərmə qabiliyyəti qeyd edilə bilər. Bazar rəqabətində uğur qazanmaq üçün təşkilat həmçinin müştəri bazasının genişləndirilməsi, rəqəmsal xidmətlərin inkişaf etdirilməsi və maliyyə məhsullarının optimallaşdırılması istiqamətində strategiyalar həyata keçirir. Bu yanaşmalar təşkilatın bazar payını qorumağa və potensial böyümə imkanlarını artırmağa imkan verir.

**9.4.Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırılması:**
Emitentin rəqabət mövqeyinə dair hər hansı bəyanatı mövcud deyildir.

## 10. Digər təşkilatlarda iştirak

**10.1.Emitentin digər hüquqi şəxslərdə iştirakının qısa təsviri:** Mövcud deyil.

**10.2.Emitentin daxil olduğu qruplardan asılılığı və bu asılılığın səbəbi:**Emitent hər-hansı bir qrupa daxil deyil, bu səbəbdən qrupda olan şəxslərdən aslılığı yoxdur.

## 11. Tendensiyalar barədə məlumat

**11.1.Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emitentin Baza Emissiya prospektində mənfi dəyişiklik olmadığı barədə məlumat:** Göstərilən tarixdən etibarən müəssisənin fəaliyyətində Baza Emissiya Prospektinə mənfi təsir edəcək hər hansı bir hal baş verməmişdir.

**11.2.Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, öhdəliklər və ya hadisələr barədə məlumat:** Emitentin fəaliyyətinə təsir edə biləcək məlum risk və ya qeyri-müəyyənlik mövcud deyil.

## 12. Gəlir proqnozu

Gəlirlərin proqnozu mövcud deyil.

## 13. Emitentin idarəetmə və nəzarət orqanları

**13.1.Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə aşağıdakı məlumatlar:**

**Emitentin ali idarəetmə orqanı (iştirakçıların ümumi yığıncağı) barədə məlumat:**

| Payçının adı | Payların sayı | Nizamnamə Kapitalında faiz nisbəti | Müstəsna Səlahiyyətləri |
|---|---|---|---|
| Əliyev Əbülfəz Əlihəsən oğlu | 50 000 | 100 % | • BOKT-nin Nizamnaməsinin qəbul edilməsi və ona hərhansı düzəlişlərin edilməsi;<br>• BOKT-nin illik maliyyə hesabatlarının və balansının təsdiqi, BOKT-nin fəaliyyəti ilə əlaqədar əmlakın istifadəsi, mənfəət və zərərin bölüşdürülməsi;<br>• BOKT-nin yenidən təşkili və ləğv edilməsi, ləğvetmə komissiyasının təyin edilməsi;<br>• BOKT-nin filial və nümayəndəliklərinin açılması, fəaliyyətinin dayandırılması və ləğv edilməsi, onların əsasnamələrinin təsdiq edilməsi;<br>• BOKT-nin Direktorunun, daxili auditorun seçilməsi, vəzifədən azad edilməsi;<br>• Kənar auditorların təyin edilməsi;<br>• Daxili audit planlarının təsdiq edilməsi; |

| | | | |
|---|---|---|---|
| | | | • İştirakçı tərəfindən nizamnamə kapitalına əlavə ödəmələrin məbləğinin, formasının və qoyuluş prosedurunun müəyyən edilməsi;<br>• BOKT-nin əsas fəaliyyətinin müəyyən edilməsi, plan və hesabatların təsdiq edilməsi;<br>• Nizamnamədə nəzərdə tutulan digər səlahiyyətlər. |

**Emitentin İcra orqanı barədə məlumat: Təkbaşına icra orqanı – Direktor**

| Adı | Vəzifəsi | Funksiyaları |
|---|---|---|
| Əliyev Rəşad Əbülfəz oğlu | Direktor | Bank olmayan kredit təşkilatlarında direktor təşkilatın baş icraedici şəxsi olaraq fəaliyyət göstərir və onun əsas funksiyaları təşkilatın strateji idarəedilməsi, əməliyyat və maliyyə fəaliyyətinin təşkili, həmçinin daxili nəzarət sisteminin qurulması və icrasını əhatə edir. Direktor kredit və digər maliyyə məhsullarının verilməsi proseslərini nəzarətdə saxlayır, təşkilatın likvidlik və kredit risklərini qiymətləndirir və onları minimuma endirmək üçün müvafiq tədbirlər görür. O, həmçinin büdcənin hazırlanmasını, xərclərin idarə olunmasını və maliyyə hesabatlarının düzgün təqdim olunmasını təmin edir. Direktor təşkilatın daxili qaydalarının, prosedurlarının və əməliyyat standartlarının tətbiqini təmin edir, kadr heyətini idarə edir və işçi funksiyalarını koordinasiya edir. Hüquqi və tənzimləyici tələblərə riayət olunması onun birbaşa məsuliyyətidir; o, Azərbaycan Respublikasının Mərkəzi Bankı və digər nəzarət orqanlarının qaydalarına əməl edilməsini təmin edir, lisenziya və icazələrin saxlanmasını nəzarətdə tutur və hüquqi dəyişikliklərə uyğun tədbirlər həyata keçirir. Eyni zamanda, direktor müştəri bazasının genişləndirilməsi, kredit məhsullarının və digər xidmətlərin optimallaşdırılması, bazar tendensiyalarının izlənməsi və rəqabət üstünlüklərinin artırılması istiqamətində strategiyalar hazırlayır. O, idarə heyəti və səhmdarlara müntəzəm olaraq maliyyə və fəaliyyət hesabatları təqdim edir və təşkilatın fəaliyyətini dayanıqlı və şəffaf şəkildə idarə edir. |

**Emitentin Müşahidə Şurası barədə məlumat:**

| Adı Soyadı | Vəzifə | Funksiya |
|---|---|---|
| Əliyev Əbülfəz Əlihəsən oğlu | Müşahidə Şurasının Sədri | Müşahidə Şurası BOKT məqsədlərini müəyyən edir və hesablaşma-kredit, investisiya, valyuta və digər fəaliyyət növləri üzrə onun siyasətini həyata keçirir və digər təşkilatlar ilə fəaliyyəti koordinasiya edir. BOKT tərəfindən həyata keçirilən kredit və investisiya siyasəti kreditə tələbatın dəyişildiyi halda bank tərəfindən qarşıya qoyulmuş məqsədlərin yerinə yetirilməsinə yardım etməlidir. |
| Əliyev Kazım Sultan oğlu | Müşahidə Şurasının üzvü | |

**13.2.Xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat:** Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107-10.5-ci maddəsinə əsasən emitentin icra orqanı üzvlərinin şəxsi marağı ilə cəmiyyətin maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən, habelə Mülki Məcəllənin 49-1.6-cı maddəsində nəzərdə tutulmuş hallarda emitentin icra orqanının rəhbəri və ya digər üzvləri müvafiq məlumatı emitentin direktorlar şurasına (müşahidə şurasına), o olmadıqda, səhmdarların ümumi yığıncağına yazılı şəkildə təqdim etməlidirlər.

Bu öhdəlik barədə Emitentin icra orqanının rəhbəri məlumatlıdır. Bu cür maraqlar ziddiyyətinə səbəb olan əqdlər yalnız Emitentin iştirakçılarının ümumi yığıncağının qərarı ilə bağlana bilər.

## 14.İdarə heyətinin işgüzar praktikası

**14.1.Audit və mükafatlandırma (olduqda) komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı:** Emitentin mükafatlandırma komitəsi mövcud deyildir.

Audit komitəsinin üzvləri:

| A.S.A | Vəzifə | Funksiyaları |
|---|---|---|
| Əliyev Azad Əbülfəz oğlu | Audit komitəsinin üzvü | • Daxili nəzarət sistemlərinin effektivliyinin yoxlanılması və qiymətləndirilməsi;<br>• Risklərin idarəetməsi metodologiyasının tətbiqinin və effektivliyinin təhlili;<br>• Elektron informasiya və ödəniş sistemləri və cəmiyyətin xidmətləri daxil olmaqla maliyyə və idarəedici informasiaya sistemlərinin təhlili;<br>• Mühasibat yazılarının və maliyyə hesabatlarının etibarlılığını və dəqiqliyinin yolanılması;<br>• Risk ehtimalı ilə əlaqədar kapitalın qiymətləndirilməsi sisteminin təhlili<br>• Aktivlərin qorunması vasitələrinin təhlili<br>• Fəaliyyətlərin səmərəliliyinin və xərclərin effektivliynin qiymətləndirilməsi<br>• Korporativ idarəetmə ilə bağlı şirkətin siyasətinin və strateji hədəflərinin tətbiqi<br>• Auditin nəticələri haqqında hesabatların hazırlanması;<br>• Normativ hüquqi sənədlərlə tələb olunan hesabatların etibarlılığının və vaxtlı vaxtında hazırlanmasının yoxlanılması;<br>• Keçirilən audit yoxlamsına əsasən hesabat hazırlayaraq şirkət rəhbərliyiə təqdim edilməsi. |

**14.2.Emitentin qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə hesabat. Uyğun olmadığı halda bu barədə hesabat:** Emitentin idarəetmə forması Mülki Məcəllə və ona müvafiq hazırlanmış nizamnaməsi əsasında müəyyən edilir və tənzimlənir. Həmçinin, "Bank olmayan kredit təşkilatları haqqında" Qanunun tələblərinə əsasən mühüm iştirak payına malik şəxslərin maliyyə etibarlılığı və işgüzar reputasiyası təmin edilmişdir. Emitentdə daxili nəzarət və risklərin idarə olunması mexanizmləri tətbiq olunmuşdur. Yanaşı olaraq Ali idarəetmə orqanının fəaliyyəti korporativ idarəetmə prinsiplərinə uyğun həyata keçirilir.

## 15.Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan şəxslər

**15.1. Emitentin nizamnamə kapitalında 10 faizdən artıq iştirak payına sahib olan şəxslərin adları, vətəndaşlığı və onlara məxsus payların sayı və nizamnamə kapitalında olan faiz nisbəti:**

| A.S.A | Vətəndaşlığı | Payların sayı | Nizamnamə Kapitalında faiz nisbəti |
|---|---|---|---|
| Əliyev Əbülfəz Əlihəsən oğlu | Azərbaycan Respublikası | 50 000 | 100% |

**15.2.Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirlərin təsviri:** Mühüm iştirak payının sahibi tərəfindən Emitentə nəzarət emitentin nizamnaməsinə və AR Mülki Məcəlləsinə uyğun olaraq həyata keçirir. Müəssisənin nizamnamə kapitalı 100 (bir yüz) % payla bir şəxsə məxsusdur. Cəmiyyətin ali idarəetmə orqanı onun İştirakçılarının Ümumi Yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər. Ümumi Yığıncaq nizamnamə kapitalında ən 60 % (altmış faiz) paya malik olan iştirakçılar iştirak etdikdə səlahiyyətli sayılır. Mühüm iştirak payına malik şəxslərin nəzarətin sui-istifadə edilməməsini təmin etmək məqsədilə aşağıdakı tədbirlər həyata keçirilir:

• Maliyyə etibarlılığı və reputasiya yoxlaması – mühüm iştirak payına malik şəxslərin maliyyə etibarlılığı və işgüzar reputasiyası təmin olunur.

• Daxili nəzarət və audit mexanizmləri – Emitentin fəaliyyəti daxili nəzarət, risklərin idarə olunması və audit prosedurlarına uyğun həyata keçirilir.

• Korporativ idarəetmə prinsiplərinə riayət – Ali idarəetmə orqanları qərar qəbul edərkən korporativ idarəetmə prinsiplərini tətbiq edir. Mühüm iştirak payına malik şəxs gündəlik idarəetməyə birbaşa müdaxilə etmir.

• Mərkəzi Bankın nəzarəti – Zərurət yarandıqda Mərkəzi Bank mühüm iştirak payına malik şəxslərin təsdiqini və fəaliyyətini yoxlayır, sui-istifadə hallarının qarşısının alınmasını təmin edir.

**15.3.Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirilə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat:** Mövcud deyil.

## 16.Emitentin maliyyə məlumatları

**16.1.Emitentin başa çatmış son üç maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları:** Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanmışdır.

### 16.1.1. Maliyyə Vəziyyəti Haqqında Hesabat

*Azərbaycan manatı ilə*

| Açıqlama | 31.12.2025 (audit olunmuş) | 31.12.2024 (audit olunmuş) | 31.12.2023 (audit olunmuş) |
|---|---|---|---|
| ***Aktivlər*** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1 015 697 | 325 047 | 128 125 |
| Satış üçün saxlanılan aktivlər | 880 132 | 648 479 | 431 819 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 12 238 162 | 10 665 355 | 8 998 484 |
| Əsas vəsaitlər | 332 376 | 350 346 | 84 634 |
| Qeyri-maddi aktivlər | 24 687 | 21 331 | 23 273 |

| | | | |
|---|---|---|---|
| Digər aktivlər | 296 343 | 95 651 | 107 100 |
| **Cəmi aktivlər** | **14 787 397** | **12 106 209** | **9 773 435** |
| **Kapital və öhdəliklər** | | | |
| ***Öhdəliklər*** | | | |
| Müddətli borc öhdəlikləri | 1 702 479 | 1 664 240 | 1 345 139 |
| Səhmdarlara olan borc öhdəliyi | 668 000 | 641 962 | 100 000 |
| Mənfəət vergisi öhdəliyi | 125 411 | 228 789 | 183 779 |
| Təxirə salınmış vergi öhdəliyi | 147 344 | 75 567 | 52 012 |
| Buraxılmış borc qiymətli kağızları | 4 496 140 | 4 112 751 | 4 576 602 |
| Digər öhdəliklər | 212 328 | 68 967 | 59 384 |
| **Cəmi öhdəliklər** | **7 351 702** | **6 792 276** | **6 316 916** |
| ***Kapital*** | | | |
| Nizamnamə kapitalı | 5 000 000 | 2 000 000 | 2 000 000 |
| Bölüşdürülməmiş mənfəət | 2 435 695 | 3 313 933 | 1 456 519 |
| **Cəmi kapital** | **7 435 695** | **5 313 933** | **3 456 519** |
| **Cəmi kapital və öhdəliklər** | **14 787 397** | **12 106 209** | **9 773 435** |

### 16.1.2. Mənfəət və ya Zərər və Digər Məcmu Gəlirlər haqqında Hesabat

*Azərbaycan manatı ilə*

| **Açıqlama** | **31.12.2025 (audit olunmuş)** | **31.12.2024 (audit olunmuş)** | **31.12.2023 (audit olunmuş)** |
|---|---|---|---|
| Faiz gəlirləri | 5 057 937 | 4 402 025 | 3 578 696 |
| Faiz xərcləri | (919 335) | (873 721) | (851 054) |
| **Xalis faiz gəlirləri** | **4 138 602** | **3 528 304** | **2 727 642** |
| Gözlənilən kredit zərəri üzrə ehtiyat | (418 420) | (223 351) | (254 026) |
| Digər gəlirlər | 578 694 | 432 481 | 287 386 |
| **Əməliyyat gəlirləri** | **4 298 876** | **3 737 434** | **2 761 002** |
| İnzibati və digər əməliyyat xərcləri | (1 646 545) | (1 398 030) | (1 023 787) |
| Vergidən əvvəlki mənfəət | **2 652 331** | **2 339 404** | **1 737 215** |
| Mənfəət vergisi | (530 569) | (481 990) | (347 443) |
| **Cəmi məcmu gəlir** | **2 121 762** | **1 857 414** | **1 389 772** |

### 16.1.3. Kapitalda Dəyişikliklər haqqında Hesabat

*Azərbaycan manatı ilə*

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi Kapital |
|---|---|---|---|
| **01 yanvar 2023-cü il** | **1 185 000** | **881 747** | **2 066 747** |
| Bölüşdürülməmiş mənfəətin nizamnamə kapitalına yönləndirilməsi | 815 000 | (815 000) | -- |
| İl üzrə cəmi məcmu gəlir | -- | 1 389 772 | 1 389 772 |
| **31 dekabr 2023-cü il** | **2 000 000** | **1 456 519** | **3 456 519** |
| İl üzrə cəmi məcmu gəlir | -- | 1 857 414 | 1 857 414 |
| **31 dekabr 2024-cü il tarixinə qalıq** | **2 000 000** | **3 313 933** | **5 313 933** |
| Nizamnamə kapitalında artım | 3 000 000 | (3 000 000) | -- |
| İl üzrə cəmi məcmu gəlir | **--** | 2 121 762 | 2 121 762 |
| **31 dekabr 2025-ci il tarixinə qalıq** | 5 000 000 | 2 435 695 | 7 435 695 |

### 16.1.4. Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat

*Azərbaycan manatı ilə*

| **Açıqlama** | **31.12.2025 (audit olunmuş)** | **31.12.2024 (audit olunmuş)** | **31.12.2023 (audit olunmuş)** |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti** | | | |
| ***Vergidən əvvəlki mənfəət*** | 2 652 331 | 2 339 404 | 1 737 215 |
| Qeyri-nağd düzəlişlər: | | | |
| Köhnəlmə və amortizasiya xərcləri | 96 527 | 22 927 | 29 823 |
| Faiz gəlirləri | (5 057 932) | (4 402 025) | (3 578 696) |
| Faiz xərci | 919 335 | 873 721 | 851 054 |
| Gözlənilən kredit zərəri üzrə ehtiyat | 418 420 | 223 351 | 254 026 |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərindən əvvəl əməliyyat fəaliyyəti üzrə istifadə edilən pul vəsaitləri** | **(971 319)** | **(942 622)** | **(706 578)** |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklər** | | | |
| Satış üçün saxlanılan aktivlərdə dəyişiklik | (231 653) | (216 660) | (3 140) |
| Müştərilərə verilmiş kreditlər və avanslarda dəyişiklik | (1 690 411) | (1 428 101) | (620 026) |
| Digər aktivlərdə dəyişiklik | (200 696) | 11 449 | (31 424) |
| Digər öhdəliklərdə dəyişiklik | 143 361 | 9 583 | 48 510 |

| | | | |
|---|---|---|---|
| **Vergidən və faizlərdən əvvəl əməliyyat fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri** | **(2 950 718)** | **(2 566 351)** | **(1 312 659)** |
| Ödənilmiş vergi | (562 170) | (413 425) | (196 541) |
| Müştərilərə verilmiş kreditlər və avanslar üzrə alınmış faiz | 4 757 122 | 3 939 904 | 1 872 817 |
| Ödənilmiş faizlər | (937 923) | (852 768) | (855 432) |
| **Əməliyyat fəaliyyəti üzrə daxil olan/ (istifadə olunan) pul vəsaitləri** | **306 311** | **107 360** | **(491 815)** |
| **İnvestisiya fəaliyyəti** | | | |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin alınması | (81 913) | (286 697) | (2 515) |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə olunan xalis pul vəsaitləri** | **(81 913)** | **(286 697)** | **(2 515)** |
| **Maliyyələşdirmə fəaliyyəti** | | | |
| Müddətli borc öhdəlikləri üzrə daxilolmalar | 1 150 000 | 1 260 000 | 400 000 |
| Müddətli borc öhdəliklərinin ödənilməsi | (1 114 244) | 939 241 | (623 484) |
| Səhmdarlardan alınmış borc üzrə daxilolmalar | 415 000 | 1 504 900 | 314 200 |
| Səhmdarlardan alınmış borcun ödənilməsi | (384 500) | 967 400 | (214 200) |
| Buraxılmış borc qiymətli kağızlarından daxilolmalar | 1 000 000 | 695 000 | 1 122 000 |
| Buraxılmış borc qiymətli kağızlarının ödənilməsi | (600 000) | (1 177 000) | (956 000) |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | **466 256** | **376 259** | **42 516** |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım/ (azalma)** | **690 654** | **196 922** | **(451 514)** |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | **325 047** | **128 125** | **579 939** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | **1 015 701** | **325 047** | **128 125** |

**16.2.Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit edilmiş maliyyə hesabatları:** Emitent bir ildən çox müddətdir fəaliyyət göstərir.

**16.3.Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanmadığı təqdirdə, belə maliyyə hesabatları milli uçot standartlarına uyğun olaraq hazırlanmalıdır və ən azı aşağıdakıları özündə əks etdirməlidir:** Maliyyə hesabatları MHBS-ə uyğun olaraq hazırlanmışdır.

**16.4.Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda):** Emitentin konsolidə edilmiş maliyyə hesabatları mövcud deyildir.

**16.5.Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarım illik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onlar baza emissiya prospektinə daxil edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə**

**edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə bu qeyd edilməlidir:** Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarımillik maliyyə hesabatları dərc edilməmişdir.

**16.6.Baza emissiya prospekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman ən azı yarımillik aralıq audit edilmiş və ya audit edilməmiş maliyyə hesabatı prospektə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ilində eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir:** Baza emissiya prospekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanmamışdır.

**16.7.Emitentin maliyyə vəziyyətinə və gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla):** Emitentin fəaliyyətinə təsir edəcək hər hansı həlli gözləyən hüquqi proses(lər) mövcud deyildir.

**16.8.Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat:** Maliyyə hesabatlarının dərc edilməsindən emissiya prospektinin tərtib edildiyi tarixə qədər emitentin maliyyə vəziyyətində hər hansı dəyişiklik baş verməmişdir.

## 17.Emitent haqqında əlavə məlumatlar

**17.1.Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, səhmlərin (payların) miqdarı, onların nominal dəyəri və növləri, habelə səhmlərin ayrı-ayrı növlərinin imtiyazları haqqında məlumat, adi və imtiyazlı səhmlərlə təsbit olunmuş hüquqların məzmunu:** Nizamnamə Kapitalının ümumi məbləği 5 000 000.00 (beş milyon) manat həcmindədir və hər biri 100 (bir yüz) manat olmaqla 50 000 (əlli min) ədəd paydan ibarətdir.

Paylarla təsbit olunan hüquqlar aşağıdakılardır:

• BOKT-nin idarə edilməsində nizamnamədə və qanunvericilikdə müəyyən edilmiş qaydada iştirak etmək, onun idarəetmə və icrs orqüanlarına seçmək və seçilmək;

• Qanunvericiliklə müəyyən edilmiş qaydada BOKT-nin fəaliyyətinə dair idarəetmə orqanlarından məlumat əldə etmək, ildə bir dəfə onun illik hesabatı və mühasibat balansı ilə tanış olmaq;

• BOKT-nin idarəetmə orqanlarına təkliflər təqdim etmək;

• BOKT-nin ümumi yığıncağının çağrılmasını təqdim etmək;

• BOKT-nin fəaliyyətinin auditor tərəfindən yoxlanılmasını tələb etmək;

• BOKT-nin nizamnamə kapitalındakı mayasına uyğun olaraq mənfəət almaq;

• BOKT-nin fəaliyyətinə xitam verildikdə, cəmiyyətin kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər ödənildikdən sonra cəmiyyətin yerdə qalan əmlaklarının müəyyən hissəsini almaq;

• Qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqlar.

**17.2.Emitentin nizamnaməsi barədə aşağıdakı məlumat:**

**Fəaliyyət və məqsədlərin təsviri:**

“Kəpəz Bank Olmayan Kredit Təşkilatı” MMC Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada qısa və uzun müddətli, təminatlı və təminatsız kreditlər verə bilər. Kreditlərin verilməsi üçün müvafiq lisenziyaya malik “Kəpəz Bank Olmayan Kredit Təşkilatı” MMC, həmçinin, aşağıdakı fəaliyyət növlərini də həyata keçirə bilər:

• Borc öhdəliklərinin alqı-satqısı (faktorinq, forfeytinq);

• Lizinq;

• Veksellərin uçotu;

• Qarantiyanın verilməsi;

• Sığorta agenti xidmətlərinin göstərilməsi (əlavə razılıq aldıqdan sonra);

• Borcalanlara, o cümlədən, birgə borcalan qruplarına maliyyə, texniki, idarəetmə və maliyyə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi.

**İdarəetmə və nəzarət orqanlarının səlahiyyətləri barədə müddəaların icmalı:**

Emitentin ali idarəetmə orqanı iştirakçıların ümumi yığıncağıdır.
**Ümumi Yığıncağın müstəsna səlahiyyətlərinə aşağıda göstərilən qərarlar aiddir:**
• BOKT-nin Nizamnaməsinin qəbul edilməsi və ona hər hansı düzəlişlərin edilməsi;
• BOKT-nin illik maliyyə hesabatlarının və balansının təsdiqi, BOKT-nin fəaliyyəti ilə əlaqədar əmlakın istifadəsi, mənfəət və zərərin bölüşdürülməsi;
• BOKT-nin yenidən təşkili və ləğv edilməsi, ləğvetmə komissiyasının təyin edilməsi;
• BOKT-nin filial və nümayəndəliklərinin açılması, fəaliyyətinin dayandırılması və ləğv edilməsi, onların əsasnamələrinin təsdiq edilməsi;
• BOKT-nin Direktorunun, daxili auditorun seçilməsi, vəzifədən azad edilməsi;
• Kənar auditorların təyin edilməsi;
• Daxili audit planlarının təsdiq edilməsi;
• İştirakçı tərəfindən nizamnamə kapitalına əlavə ödəmələrin məbləğinin, formasının və qoyuluş prosedurunun müəyyən edilməsi;
• BOKT-nin əsas fəaliyyətinin müəyyən edilməsi, plan və hesabatların təsdiq edilməsi;
• Nizamnamədə nəzərdə tutulan digər səlahiyyətlər.
Emitentin icra orqanına nəzarəti həyata keçirən Müşahidə Şurasıdır.
**Müşahidə Şurası aşağıdakı səlahiyyətlərə malikdir:**
• Cəmiyyətin fəaliyyətinə ümumi nəzarətin həyata keçirilməsi;
• İcra orqanlarının fəaliyyəti üzrə hesabatların nəzərdən keçirilməsi və rəylərin verilməsi;
• Maliyyə hesabatlarının ilkin təsdiqi və ümumi yığıncağa tövsiyə olunması;
• Audit nəticələrinin və risk menecmentinin qiymətləndirilməsi;
• Daxili nəzarət sisteminin monitorinqi;
• Ümumi yığıncağın səlahiyyətinə aid olmayan digərt nəzarət funksiyalarını həyata keçirmək.
**Direktorun səlahiyyətlərinə aşağıdakılar aid edilir:**
• BOKT-nin cari fəaliyyətinə rəhbərlik edir və onun operativ idarə olunmasını həyata keçirir;
• Ümumi Yığıncağın iclaslarını çağırır;
• Ümumi Yığıncağın qərarlarının vaxtında və qeyd-şərtsiz icra olunmasını təmin edir;
• Girov əmanətinə sərəncam verir;
• Vəkalətnamə olmadan BOKT-nin adından öz səlahiyyətləri çərçivəsində müqavilələr və sənədlər imzalayır, onu istər ölkə daxilində, istərsə də xaricdə üçüncü tərəflər qarşısında təmsil edir;
• Banklarda BOKT-nin istənilən növ bank hesablarını açır və onlara dair sərəncam verir;
• BOKT-nin əmək intizamı və müəssisədaxili intizam qaydalarını, əmək və kollektiv əmək müqavilələrini işləyib hazırlayır;
• BOKT-nin işçilərinin əmək funksiyasının dairəsini müəyyən edir, onlarla əmək müqavilələri bağlayır və qanunvericiliklə müəyyən edilmiş qaydada və əsaslarla əmək müqavilələrini ləğv edir;
• BOKT-nin işçilərinə həvəsləndirmə tədbirləri tətbiq edir və onları intizam məsuliyyətinə cəlb edir;
• BOKT-nin fəaliyyəti ilə əlaqədar səlahiyyətinə aid olan məsələlər üzrə əmrlər və cəmiyyətin bütün işçiləri üçün icrası məcburi olan göstərişlər verir;
• BOKT-nin təşkilati strukturunu, ştat cədvəlini, daxili struktur bölmələri haqqında əsasnamələri və illik büdcəsini hazırlayır və təsdiq olunması üçün Ümumi Yığıncağın müzakirəsinə çıxarır;
• BOKT-nin işçilərinin təhsil alması üzrə proqramlar və tədbirlərə aid təkliflər hazırlayır və təsdiq olunması üçün Ümumi Yığıncağın müzakirəsinə çıxarır;
• Ümumi Yığıncağın qərarı ilə ona həvalə edilən digər səlahiyyətləri yerinə yetirir.

**17.3.Emissiya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat:** Mövcud deyil.

## 18.Baza emissiya prospekti üzrə istiqrazlar haqqında tələb olunan məlumat

**18.1.Qiymətli kağızların emissiyasını tənzimləyən qanunvericilik:** Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, ləğv olunmuş Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016 -cı il tarixli 05 nömrəli qərarı ilə təsdiq edilmiş "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar və 27 yanvar 2016-cı il tarixli, 04 saylı nömrəli Qərarı ilə təsdiq edilmiş "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında" Qaydalar.

**18.2.Təklif olunan qiymətli kağızların reytinqi və bu reytinqə təsir edən amillər barədə məlumat:** Təklif edilən istiqrazların reytinqi mövcud deyil.

**18.3.İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda):** Hər hansı məhdudiyyətlər nəzərdə tutulmamışdır.

**18.4.İstiqraz üzrə gəlirlərdən mənbədə verginin tutulması barədə məlumat. İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə emitentin öhdəliyi:** İstiqrazlar üzrə faiz ödənişi zamanı qanunvericilikdə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur. AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır. İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması üzrə Emitentin öhdəliyi müvafiq müqavilə əsasında ödəniş agenti olan Milli Depozit Mərkəzi ötürülür. Milli Depozit Mərkəzi faiz (kupon) ödənişi günündən bir iş gün əvvələ düşən iş gününün sonunda saat 18.00-da istiqraz sahiblərinin reyestrini formalaşdıracaqdır. Növbəti iş günü (ödəniş günü) həmin reyestrdə adları qeyd olunan investorlara sahib olduqları istiqrazların sayına görə müvafiq faiz (kupon) ödənişinin məbləği hesablanacaqdır.

**18.5.Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:** Emissiya ediləcək istiqrazlar həm fiziki, həm də hüquqi şəxslər tərəfindən əldə edilə bilər.

**18.6.İstiqrazların** növü: Faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqraz.

**18.7.Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri (yeni buraxılan və mövcud olan istiqrazlar barədə məlumat ayrı-ayrılıqda göstərilməklə):** Tədavüldə olan istiqrazlar:

• AZ2010020801 – nominalı 1 000 (bir min) manat olan 500 (beş yüz) ədəd;
• AZ2008020805 – nominalı 1 000 (bir min) manat olan 1 000 (bir min) ədəd;
• AZ2009020804 – nominalı 1 000 (bir min) manat olan 1 000 (bir min) ədəd;
• AZ2012020809 – nominalı 100 (bir yüz) manat olan 10 000 (on min) ədəd;
• AZ2013020808 – nominalı 100 (bir yüz) manat olan 10 000 (on min) ədəd.

Yeni buraxılan:

Yeni buraxılan istiqrazlar 20 000 (iyirmi min) ədəd olmaqla 1 (bir) il ərzində tranşlarla yerləşdiriləcək və hər tranş üzrə istiqrazların sayı aşağıdakı formada müəyyənləşdirilmişdir:

Bütün buraxılışlar yekun şərtlərlə müəyyən ediləcək.

**18.8.İstiqrazların valyutası:** Azərbaycan manatı.

**18.9.İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilmə qaydası və onlara dair məhdudiyyətlər:** İstiqraz mülkiyyətçiləri aşağıdakı hüquqlara malikdirlər:

• Emitentin ləğvi, yaxud emitentin kreditorlarının tələblərinin ödənilməsinin təminatına real təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
• İstiqrazların tədavül müddətinin sonunda istiqrazların nominal dəyərini Emitentdən almaq;
• İstiqrazların tədavül müddəti ərzində istiqrazların nominal dəyərindən hər bir buraxılışın yekun şərtlərində müəyyən olunmuş faiz dərəcəsinə uyğun faiz gəliri almaq;
• Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

• İstiqraz mülkiyyətçiləri öz hüquqlarını bilavasitə özləri və ya qanunvericiliklə nəzərdə tutulmuş qaydada səlahiyyətli nümayəndələri vasitəsi ilə həyata keçirə bilərlər.

**18.10.Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti:** Əsas borc və faizin ödənilməsi ilə bağlı iddia müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372-384-cü maddələri ilə tənzimlənir.

**18.11.İstiqrazlar üzrə ödənilməli faizlər:** 1-ci buraxılış üzrə istiqrazların illik faiz dərəcəsi 15 (on beş) faiz təşkil edir, 2-ci buraxılış üzrə isə istiqrazların illik faiz dərəcəsi yekun şərtlər ilə müəyyən olunacaq. İstiqrazlar üzrə hesablanmış faizlər, buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən hər 1 (bir) ayda bir (bir ayda 30 (otuz) gün olduğunu qəbul etmək şərti ilə) ödəniləcəkdir. İstiqrazların tədavül müddəti 24 ay təşkil edir. İstiqrazların dəyəri tədavül müddətinin sonunda ödəniləcək. İstiqrazların nominal dəyərinin ödənişi qeyri-iş gününə təsadüf edərsə, ödənişlər növbəti iş günü həyata keçiriləcəkdir.

**18.12.Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin hesablanması üsulu:** Faiz dərəcəsi müəyyən olunmuşdur.

**18.13.Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları:** İstiqrazlar üzrə baza aktivi mövcud deyil. Bazarda baş verən hadisələr istiqrazlar üzrə hesablaşmalara mənfi təsir göstərməyəcəkdir.

**18.14.Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** Təklif edilmiş istiqrazlar təmin edilməmişdir.

**18.15.İstiqrazların geri satın alınmasının şərtləri:** Emitent tərəfindən istiqrazların tədavül müddəti ərzində geri satın alınma öhdəliyi və hüququ nəzərdə tutulmur.

**18.16.Gəlirlik dərəcəsi və onun hesablanması qaydası:** 1-ci buraxılış istiqrazlar üzrə kupon gəlirliyi illik 15 (on beş) faiz təşkil edir. İstiqrazlar üzrə toplanmış faizlərin hesablanması aşağıdakı düstura uyğun olaraq aparılır:

$$TF = \frac{\frac{(N * D * G)}{360}}{100}$$

**Burada:**

**TF –** Bir istiqraz üzrə toplanmış faizlər;

**N –** Bir istiqrazın nominal dəyəri: 100 (bir yüz) manat;

**D –** 1-ci buraxılış üzrə istiqrazların illik faiz dərəcəsi: 15 (on beş);

**G –** İstiqrazların faiz ödəniş dövrünün müddəti: (hər 1 (bir) ayda bir (bir ayda 30 (otuz) gün olduğunu qəbul etmək şərti ilə).

**18.17.İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat:** Mövcud deyil.